


# Müqayisəli Ədəbiyyatşünaslıq

## Comparative Literature Studies

ISSN : 2663-4414 E-ISSN : 2709-0762
Nəşr edən/Publisher : AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Cild/Vol, 2, Sayı/No. 1, 13-27, 2024
DOI: https://doi.org/10.59849/2663-4414.2024.1.13

Araşdırma Məqaləsi / Research Article


**XX Əsrin Əvvəllərində Türkiyə Və Azərbaycan Bədii Nəsrində Gender Problemi**

The Gender Problem İn The Artistic Prose Of Turkey And Azerbaijan At The Beginning Of The 20th Century


Eşqanə Babayeva

E-mail: eshqane@mail.ru
Tel:+9940703860014
ORCİD: https://orcid.org/0000-0002-4934-4168
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu



**Xülasə:** XX əsrin əvvəlləri Türkiyə və Azərbaycan ədəbiyyatında, mətbuatında diqqəti cəlb edən əsas məsələlərdən biri də gender problemidir. Azərbaycan ədəbiyyatında Cəfər Cabbarlı, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Abdullabəy Divanbəyoğlu, Cəlil Məmmədquluzadə kimi aydınlarımızın əsərlərində qadın haqq və hüquqları kimi məsələlər geniş şəkildə öz əksini tapırdı. Bu əsərlərdə əsasən cinsi ayrı-seçkiliyin doğurduğu mənfi təzahürlərdən, əzilən, istismara məruz qalan qadının acı taleyindən, tapdalanmış haqlarından, bir sözlə qadının cəmiyyətdəki mövqeyindən bəhs edilir, maarifçilik təbliğ edilirdi. Sözügedən dövrdə Türkiyə ədəbiyyatında da bu problem aktuallıq kəsb edirdi. Xalidə Ədib Adıvar, Kərimə Nadir Əzraq, Müəzzəz Təhsin Bərkand, Güzidə Səbri Aygün, Safiya Ərol, Suad Dərviş Baranər, Şükufə Nihal Başar, Xalidə Nüsrət Zorlutuna kimi qadın yazıçıların əsərlərində qadın köləliyinə, əsarətinə etiraz öz əksini tapırdı. Bu problem təkcə, qadın yazıçıların deyil, Rəşad Nuri Güntəkin, Hüseyn Rəhmi Gurpınar, Əsəd Mahmud Qaraqurd, Rəşad Enis Aygən kimi digər yazıçıların da əsərlərində özünü göstərirdi. Bu əsərlərin leytmotivini köləlik, əsarət, qadınların zorla ərə verilməsi, azad sevgi, qadının ailə və cəmiyyətdəki mövqeyi, iş həyatı, ən başlıcası, qadın olduğu üçün mütəmadi olaraq ayrı-seçkiliyə və istismara məruz qalması kimi problemlər təşkil edirdi. Məqalədə ümumi olaraq, XX əsrin əvvəllərində Türkiyə və Azərbaycan bədii nəsrində gender probleminə nəzər salınmış, bu kontekstdə qələmə alınan əsərlər müqayisəli olaraq təhlil edilmişdir. Tədqiqat işi tipoloji-müqayisəli təhlil metodu əsasında hazırlanmışdır.



**Açar sözlər:** ***Müqayisəli ədəbiyyat, qadın və cəmiyyət, gender problemi, qadın haqları, təhsil***

Məqalənin gəldiyi tarix/Received: 02.07.2024
Qəbul tarixi/Accepted: 23.11.2024
Nəşr tarixi/ Available Online: 01.12.2024



**Abstract:** The gender problem is one of the main topics attracting attention in the literature and press of 20th century Turkey and Azerbaijan. Issues such as women's rights were widely reflected in the works of intellectuals such as Jafar Jabbarli, Yusif Vazir Chamenzaminli, Seyid Huseyn, Abdullabey Divanbeyoglu, and Jalil Mammadguluzade in Azerbaijani literature. These works mainly talked about the negative manifestations caused by gender discrimination, the fate of oppressed and exploited women, their trampled rights, in short, their position in society, and enlightenment was promoted. At the same time, this problem was relevant in Turkish literature. In the works of female writers such as Khalida Adib Adivar, Karima Nadir Azrak, Muazzaz Tahsin Barkand, Guzida Sabri Aygun, Safiya Arol, Suad Darvish Baraner, Shukufa Nihal Bashar, Khalida Nusrat Zorlutuna, protest against women's slavery was reflected. This problem was manifested not only in the works of female writers, but also in the works of other writers such as Rashad Nuri Guntekin, Huseyn Rahmi Gurpinar, Asad Mahmud Garagurd, Rashad Enis Aygen. The leitmotif of these works were issues such as slavery, servitude, forced marriage of women, free love, the position of a woman in the family and society, the most important thing in her work life, and the fact that she is regularly discriminated against and exploited because she is a woman. In general, the article analyzed the gender problem in the literary prose of Turkey and Azerbaijan at the beginning of the 20th century, and compared the works written in this context.The research work was prepared based on the typological-comparative analysis method.



**Keywords:** ***Comparative literature, women and society, gender problem, women's rights, education***



**Cite as(APA 7):** Babayeva, E. (2024). XX Əsrin Əvvəllərində Türkiyə Və Azərbaycan Bədii Nəsrində Gender Problemi. *Müqayisəli Ədəbiyyatşünaslıq*, *2*(1), 13-27. https://doi.org/https://doi.org/10.59849/2663-4414.2024.1.13

## Giriş / *İntroduction*

Çağdaş ədəbiyyatımızda diqqəti cəlb edən gender problemi ötən əsrin əvvəllərində patriarxal baxışların hökm sürdüyü bir dönəmdə də ədəbiyyatın əsas mövzusuna çevrilə bilmişdir. Sözügedən dövrün ədəbi prosesini diqqətlə izlədikdə, bu problemə həssaslıqla yanaşıldığını görürük. Təsadüfi deyil ki, sözügedən dövrdə Azərbaycanda "Şərqi-rus", "Kaspi", "Tərəqqi", "İrşad", "Tazə həyat", "Molla Nəsrəddin" kimi müxtəlif qəzet və jurnallarda qadının cəmiyyətdə yeri məsələsinə toxunulur, müsəlman qadının savad alması kimi mühüm məsələlər gündəmə gətirilirdi. Mətbuatda az da olsa qadın imzalarına da rast gəlinirdi. "Milli mətbuat tariximizdə "Gəncəli bir xanım", "Bakılı bir xanım" ilk qadın imzaları da məhz "Şərqi-rus" qəzeti səhifələrində dərc olunub"(Fərəcov, 2015). 1911-ci ildə isə maarifçi qadın jurnalı olan "İşıq" nəşr olunmuş, elə ilk sayından onun ilk qadın mətbu orqanı olduğu, cəmiyyətdəki önəmi qeyd olunmuşdur(Qasımova, 2010, pp. 6-7). Qadın problemlərini işıqlandıran "İşıq"ın ömrü o qədər uzun olmasa da, bu sahədə atılan ilk addım kimi dəyərləndirilə bilər. Daha sonra "Zəhmətkeş qadınların yolu", "Zaqafqaziya zəhmətkeş qadını", "Şərq qadını" (1938-ci ildən "Azərbaycan qadını" adı ilə) kimi qadın mətbu orqanları fəaliyyətə başlamışdır. Məsələyə ümumi nəzər salsaq görərik ki, "qədim türklərdə qadın haqları, ailə bağları müqəddəs sayılacaq qədər həssaslıq və incəliklə qorunmuşdur. Bunun ən doğru və gerçək örnəklərini görmək üçün qədim türk dastanlarına baxmaq yetərlidir"(Asker, 2022, p. 44).

Qadın haqlarının qorunması Türkiyədə yenicə qurulan Cümhuriyyətin də önəm verdiyi məsələlərdən idi. Türkiyədə bu hərəkat II Məşrutiyyət dövründən başlamış, "Qadınlar dünyası", "Qadınlar aləmi", "Gənc qadın", "İnci", "Xanım", "Ev xocası", "Süs", "Füruzə" kimi qadın problemlərindən bəhs edən qəzet və jurnalların fəaliyyətinə rəvac verilmişdir. Bunlarla yanaşı, "İqdam", "Sabah", "Sərvət-i fünun", "Millət" kimi müxtəlif qəzetlərdə bu problem öz əksini tapmışdır. İlk Müsəlman-Türk qadın dərnəyinin qurulması da bu mərhələyə təsadüf etmişdir. Cümhuriyyət dövründə bu proses daha da güclənmiş, qadınlara siyasətdə belə geniş yer verilmişdir. Beləliklə, "müsəlman-ailə qadını" ifadəsi yavaş-yavaş "Cümhuriyyətin sadiq və üsyankar qızları"(Durakbaşa, 2000, p. 142) ifadəsi ilə əvəzlənmişdir.

## Əsas mətn / *Main Part*

Qadın dünyası, duyğu və hissləri, ailə və cəmiyyətdəki mövqeyi kimi məsələlər XX əsrin əvvəllərində təkcə mətbuatın deyil, ədəbiyyatın da əsas mövzularından birinə çevrildi. A.Divanbəyoğlu, Y.Çəmənzəminli, S.Hüseyn, C.Cabbarlı və s. kimi yazıçılarımız qadının cəmiyyətdə yeri məsələsini öz əsərlərində dolğunluqla əks etdirirdi. Türk ədəbiyyatında isə X.Ə.Adıvar, K.Nadir, M.T.Bərkand, G.S.Aygün, S.Dərviş, Ə.M.Qaraqurd, R.E.Aygən, R.N.Güntəkin, Ş.N.Başar kimi yazıçıların böyük əksəriyyətinin əsərlərində qadın köləliyinə, qadın əsarətinə etiraz öz əksini tapırdı.

Cümhuriyyət dövründə şəxsiyyəti, mövqeyi, əsərləri ilə qadın kimliyini ön plana gətirən yazıçılardan biri də X.N.Zorlutuna idi. Onun "Küllər" (1921), "Sisli gecələr" (1922), "Gülün babası kim" (1933), "Aydınlıq qapı" (1955) kimi romanlarının leytmotivini bu məsələlər təşkil edirdi. Yazıçını narahat edən əsas problemlərdən biri qızların görücü üsulu və ya göbəkkəsmə adəti ilə zorla ərə

verilməsi idi. Müsəlman cəmiyyətlərin əksəriyyətində olan bu adətə görə uşaqlar doğulan kimi bir-birlərinə ad edilir, böyüdükdə isə məcburən evləndirilirdi. Yazıçının "Sisli gecələr" romanında Minənin, xalası oğlu Əhməd Nüzhətə ad edildiyini, əslində isə onun Əhmədi yox, böyük qardaşı Fikrətə gizli sevgi bəslədiyini görürük. Yazıçı göstərir ki, Minə nə qədər cəhd etsə də, heç cürə stereotipləri qıra bilmir, mərhum xalasının mütəmadi yuxusuna girməsi isə onu daha da vicdan əzabına boğur. Beləliklə, müti şəkildə qədərinə boyun əyib, sevmədiyi adamla ailə qurur. Bu gizli eşq, çəkdiyi iztirablar, sonunda dözə bilməyib sirrini faş etməsi Minəni intihara aparır. Əsərdə diqqəti cəlb edən qadın obrazlarından biri də Fikrətin həyat yoldaşı, tibb bacısı Zəhradır. Zəhra əslində yenilikçi qadın obrazı olsa da, Minənin Fikrəti gizli-gizli sevdiyini, Fikrətin də ona etinasız olmadığını öyrənməsinə baxmayaraq, bu ehkamları qırmaqda acizlik göstərir, Minənin intiharından sonra isə heç nə olmamış kimi həyatını qızı Qayəyə həsr edərək ailəsini dağıtmadan yoluna davam edir. "Minənin xatirəsi isə dumanlı bir gecənin xatirəsi kimi yaddaşlarda qalır" (Zorlutuna, 1938). Qeyd edək ki, yazıçı üçün qadın ilk növbədə fədakar anadır. Yazıçının "Eşq və zəfər" romanı da eyni motiv üzərində qurulmuşdur. "Sisli gecələr" romanında olduğu kimi burada da, Zəliha və İbrahim uşaq vaxtı göbəkkəsdi edilsələr də, İbrahim Zəliha ilə deyil, Zinnur adlı bir qızla evlənmək istəyindədir. Bu ehkamları yıxmağa çalışan İbrahim ənənələrə qarşı çıxaraq Zinnur ilə nişanlansa da evlənməyə müvəffəq ola bilmir. Zəliha köhnə adət-ənənələrin, köhnə zehniyyətin yetişdirdiyi, bir neçə evliliyi labüd hesab edən cahil qadının tipikləşdirilmiş obrazıdır. Bunu Zinnura yazdığı məktubundan da görürük: "O səni sevdiyi üçün, mən də səni sevirəm Zinnur bacı! Sən 20, mən isə 16 yaşındayam. Sən mənim böyüyüm, bacımsan! Nə olar, icazə ver, İbrahim məni də alsın. Sən "al" desən, o razılaşar. Bizim kişilər bir qadınla kifayətlənməz. Əlbəttə ki, İbrahim kimi bir bəyzadəyə sən layiqsən, amma mən də onun dayısı qızıyam, günahım boynundadır" (Zorlutuna, 2008, p. 137). Yazıçı Zəlihanın timsalında cəhaləti, mənasız adətləri tənqid edir. "Sisli gecələr"in qəhrəmanı Zəhra kimi, Zinnur da fədakarlıq edərək, eşqini qəlbində dəfn edir. Şəxsi hisslərini milli duyğularına fəda edən hər iki obraz Cümhuriyyətin yeni, ideal qadın xarakteri kimi səciyyələndirilə bilər. Xalidə Nüsrətin qızı Əminə İşınsu anasının əsərlərindəki ideal qadın xarakterlərinin müəyyən bir qayəyə xidmət etməsi məsələsinə toxunaraq yazırdı: "O (Anam) yazarkən o qədər də sərbəst deyildi. Oxucularının yazdıqları ilə şəxsi həyatını qarışdırmaqlarından, bəzi mənasız söz-söhbətlərdən ehtiyat edərdi. İstəyirdi ki, romanlarının baş qəhrəmanları da onun kimi namuslu, düzgün və ləkəsiz olsunlar. Bu narahatlıq olmasaydı, bəlkə də daha qüvvətli, realist romanlar yazardı"(Zorlutuna, 2008, p. 12). Gördüyümüz kimi, qadın problemlərindən, qadın hiss və duyğularından yazmaq, o dövrdə bir qadın yazıçı üçün də asan deyildi. Bunu digər qadın yazıçıların da timsalında görmək mümkündür. Bu nümunə cəmiyyətdə özünəməxsus yer tutan ziyalı xanımların belə, cəmiyyətin "nə deyərlər" təzyiqindən qurtula bilmədiyini göstərir. Belə bir çətin şəraitdə N.M.Təpəndigil, X.Ə.Adıvar, X.N.Zorlutuna, S.Dərviş və digər qadın həmkarlar bu hərəkata qoşularaq, qadın haqlarını qorumağa çalışırdı. Xatırladaq ki, N.M.Təpəndigil "Qadınlar xalq firqəsi" (1923), "Türk Qadınlar Birliyi"ni (1924) qurmuş, "Qadın yolu" (dördüncü sayından etibarən "Türk qadın yolu") (1924-1927) adlı jurnal dərc etmiş, ömrünün sonuna qədər qadın haqları uğrunda cəsarətlə mübarizə aparmışdır. Gender problemini irəli sürən yazıçı 1929-cu il "İqdam"

qəzetində dərc olunan "Türk qadınları millət vəkili olmaq istəyir" sərlövhəli yazısında cəsarətlə qadınlara siyasətdə yer verilməsini tələb edirdi: "Bizə gözləyin demək mənasızdır. Yoxsa, qadın hələ də təcrübəsizdir demək istəyirsiniz? Fəqət dəmirçi zindan başında usta olurmuş, deyiblər, biz qadınlar da bu işlərdən uzaq qaldıqca qırx il də keçsə təcrübə toplaya bilmərik.... Nəyi gözləyəcəyik? Qadının başqa xilqətlə dünyaya gəlməsinimi"(Dik, 2012, p. 32). Türkiyədə feminist yazıçılardan olan Nəzihə həm elmi-publisistik, həm də bədii əsərlərində bu hərəkata öz töhfələrini verirdi. Onun əsərlərində toxunduğu önəmli məsələlərdən biri də, qadınların kölə kimi alınıb-satılması, ən başlıcası isə Osmanlı dövründə aktual olan cariyəlik məsələsinin kəskin tənqidi idi. Xüsusən yazıçı "Mənliyim mənimdir" (1929), "Sus, qəlbim sus" (1944) romanlarında qadınların hərəmxanalarda məhv olmasının, qul kimi alınıb satılmasının əleyhinə çıxır, təkcə Türkiyədə deyil, bütün müsəlman dünyasında onların düşdüyü acınacaqlı vəziyyəti çılpaqlığı ilə təsvir edirdi. "Sus, qəlbim sus" romanında (Muhiddin, 1944), Osmanlı sarayına gətirilərək kölə həyatına məhkum edilən Zərmisal adlı gənc qızın məhv edilmiş həyatından bəhs edilir.

"Mənliyim, mənimdir" romanında da cariyə kimi satılan çərkəz qızı Zeynəbin timsalında qadın hüquqsuzluğu öz ifadəsini tapır. Əsərin ilk hissəsindən digər cariyə qızlardan fərqli olaraq Zeynəbin bu gedişata qarşı çıxmaq istədiyini, qızların həsədlə, "bu gözəlliklə, Allah bilir hansı şahzadəyə məşuqə olacaqsan" (Muhiddin, 2006, p. 59) sözlərinə qəzəblə "bu səadətdirmi, axmaqlar" (Muhiddin, 2006, p. 59) - deyə hayqıraraq etiraz etdiyini görürük. On üç yaşındaykən Osmanlı vəziri Nüsrətullah paşaya satılan Zeynəbin simasında məhv edilmiş, gənc qızcığazın acı taleyi əks olunur. Zeynəb kölə kimi satıldığı vaxt dəfələrlə intihar etmək istəsə də, buna müvəffəq olmur. Doğma ata-anası tərəfindən satılmaq Zeynəbin qəlbində dəhşətli intiqam hissi oyadır. Hətta paşanın evində ona təlim-tərbiyə verən Dilşad qalfa ilə münasibətində də bunu görürük. O, gah qalfanı anasına bənzətdiyi üçün qucağına atılıb, sarılmaq, anasının iyini ondan almaq, gah da onu paşanın otağında tək qoyub getdiyi, eynilə anası kimi ona xəyanət etdiyi üçün ilan kimi boğazına dolanıb öldürmək istəyir. Daxili monoloqda bu duyğular öz əksini tapır: "Tapındığım mənliyimə, hürriyət və şəxsiyyətimə ilk əsarət zəncirini qatil əlləriylə vuran ata-anama qarşı dəhşətli bir qeyz hiss etdim! Ən yaxınlarımı ən qatı düşmən kimi görmək məni elə dərindən yaraladı ki, hələ də o ilk nifrətin çibanı ürəyimdə işləyib durur" (Muhiddin, 2006, p. 60). Əzilən, istismara məruz qalan, həyatı məhv edilən Zeynəb bunun intiqamını almağı qarşısına məqsəd qoyur. Beləliklə, müxtəlif hiylələr quraraq paşanın ölümünə səbəb olur. Azadlığı uğrunda mübarizə aparan Zeynəb daha sonra bütün həyatını, öz diliylə desək, "mənliyini" oğluna həsr edir. Ətəm İzzət Benicənin "Beş xəstə var" (1932) romanının qəhrəmanı Bəlkis də, zorla Abuk paşa adlı varlı bir adama ərə verilir, sevgilisi Cahid isə Misirə sürgünə göndərilir. Sevgilisindən ayrılmaq, bir əşya kimi satılmaq Zeynəb kimi Bəlkisin də qəlbində dəhşətli bir intiqam hissi yaradır. Bu intiqam hissi hər şeyi, bütün əxlaqi-mənəvi dəyərləri, Bəlkisin özünü belə məhv edir. Əsərin əvvəlində qürurlu, namuslu, məsum bir qız kimi təqdim edilən Bəlkis, getdikcə dəyişir, özü və ətrafıyla gərgin konflikt yaşayır. Ailə-məişət ziddiyyəti müstəvisində ələ alınan romanda arxa fonda mühit, dövrün ictimai-siyasi hadisələri əks olunaraq, bir insanı bataqlığa sürükləyən fərdi, iqtisadi, sosial səbəblər açılıb göstərilir. Əmirqanlı gözəl Bəlkis, öncə prenses

Bəlkisə, sonra küçə qadını Gündoğdu Əminəyə (Bəlkis), daha sonra isə xəstə Bəlkisə çevrilir. Bütün bu olanların heç biri bircə an da olsun Bəlkisin kinini,nifrətini unutdurmur.

Nəzihə Mühiddinin romanlarında olduğu kimi, Ərcümənt Əkrəm Talunun "Şövkətməab" (1925) romanında da saray həyatı, hərəmxana, cariyəlik sistemi tənqid olunaraq, Dilfəzanın timsalında qadın hüquqsuzluğu ən real boyalarla təcəssüm olunur. Zeynəb və Zərmisal kimi Dilfəza da bu sistemə etiraz edərək, üsyan edir. Qadın köləliyinə kəskin etiraz S.Dərvişin "Əminə" romanının da əsas mövzusudur. Əsərdə Zərmisal ("Sus qəlbim, sus"), Zeynəb ("Mənliyim mənimdir"), Dilfəza ("Şövkətməab") kimi sahibsizlikdən başına min bir zillət gələn, yetimçiliklə böyüyən, şəhid yavrusu Əminənin taleyindən bəhs olunur. Müharibədə valideynlərini itirdikdən sonra yetimxanaya düşən, daha sonra isə övladlıq verilən Əminənin başına gələnlər oxucunu kədərə boğur. Elə ilk səhnədə onu övladlığa götürən ailənin müdirlə arasındakı dialoqdan sarsıdıcı həqiqət üzə çıxır:

" –İstəyirsiniz başqalarına da baxın.

– Tənbəldir?"(Derviş, 1931, p. 10).

Məlum olur ki, əslində Əminə onların dörd uşağına baxmaq, bir sözlə qulluqçuluq etmək məqsədi ilə övladlığa götürülmüşdür. Əzab-əziyyətə dözməyən Əminə ordan qaçıb, yetimxanaya pənah gətirsə də, yenidən zorla ucuz işçi qüvvəsi kimi "övladlıq" verilir: "Zavallı balaca... Hamıdan səssiz, qorxaq, müti olduğu üçün təkcə xanımların deyil, xidmətçilərin də qulluqçusu idi.... Bəli, onların ən azından güvənəcək yeri, uzaq da olsa bir qohumu var idi.... Fəqət Əminə kimsəsiz, zavallı bir uşaq idi. O, bu şəhərin içərisində itib-batan bir biçarə idi. Onun kimsəciyi yox idi"(Derviş, 1931, p. 137). Beləcə, xor görülən, istismara, hətta iftiraya uğrayan, daha sonra isə zorla çirkin, yaşlı bir adama ərə verilən Əminənin üzünə tale gülmür. Sığınacaq bir evin, yeyəcək bir loxma çörəyin nə demək olduğunu yaxşı bilən Əminə əri Bəkir əfəndinin təhqir və dayaqlarına dözür. Həyatı boyu zülmə, şiddətə məruz qalan Əminə al-qanın içində aynadakı Əminə ilə üz-üzə gələrək, sanki qəflət yuxusundan ayılır, gəncliyinin, gözəlliyinin, ən başlıcası isə insan olduğunun fərqinə varır, illərlə qəlbində yığılıb qalmış üsyankar ruhu dirçəlir. Yazıçı Əminə obrazı ilə kişilərin cəmiyyətdəki patriarxal roluna, kişi və qadın kombinasiyasının pozulmasına rəvac verən qütbləşməyə qətiyyətlə qarşı çıxır. S.Dərvişin "Heç", "Könül kimi", "Ankara məhbusu", "Fosforlu Cevriyə" əsərlərində olduğu kimi, burada da sosial ədalətsizlik məsələsinə toxunulur, kimsəsiz, biçarə qadınların tərcümeyi-halı verilir. Əminə kimi "Fosforlu Cevriyə" əsərinin qəhrəmanı Cevriyə də kimsəsizliyin, daha düzgün ifadə etsək, sosial ədalətsizliyin qurbanına çevrilmişdir. Cevriyə özünü elə tək, kimsəsiz hiss edir ki, hətta nə zamansa onu bətnində gəzdirən bir qadının olmasına belə şübhə edir. "Bir qadın... Əcaba həqiqətən də onu qarnında daşıyıb, qanıyla bəsləyib, ona həyat vermək üçün iztirab çəkən bir qadın vardırmı? Onun qundağını qucağına alıb, südüylə bəsləyən bir qadın"(Derviş, 2000b, pp. 177-178). Yazıçı bu əsərləriylə şəhid yavrusu Əminələri, Cevriyələri sürünməyə, əzilməyə məhkum buraxan sosial ədalətsizliyi, ictimai mühiti tənqid atəşinə tutur.

Təhlillər göstərir ki, "Sus qəlbim, sus", "Mənliyim, mənimdir" (N.Mühiddin), "Əminə" (S.Dərviş), "Ölən qadının gündəliyi" (G.S.Aygün) kimi romanlarda qızların sevmədiyi insana və ya özlərindən qat-

qat yaşlı, çirkin və varlı adamlara zorla ərə verilməsi faktına S.Hüseyn, Y.V.Çəmənzəminli və A.Divanbəyoğlunun əsərlərində də rast gəlinir. Məsələn, Çəmənzəminlinin "Doqquz ay keçmiş" (Çəmənzəminli, 1976, pp. 75-76) hekayəsində ər evində zülmə düçar olan üç qızın faciəvi taleyindən bəhs olunur. Qızlardan – dərzi Hüseynin qızı dərmansız dərdə mübtəla olur, yetim Güləndamı əri döyə-döyə öldürür, Qəmər isə başını götürüb ər evindən qaçır. Kölə kimi ana-atası tərəfindən satılan Zeynəb (S.Dərviş), var-dövlətə görə zorla ərə verilən Fikrət (G.S.Aygün), Bəlkis (Ə.İ.Benicə), sultanı rədd etdiyi üçün cəza olaraq yaşlı və çirkin İlyas paşaya ərə verilən Zərmisal kimi, Çəmənzəminlinin "Üç" hekayəsində də atanın var-dövlət xatirinə üç qızını da fəlakətə sürükləməsi nəql edilir. Bu problemi yazıçının, toy günü ər evindən qaçdığı üçün damğalanan, daha sonra isə dəli olan Sitarənin ("Divanə"), "abır-həyasına" qısılıb ər evində zülümlərə dözən Züleyxanın ("Dərdli Züleyxa") və Sürəyyanın ("Qumarbazın arvadı") timsalında da görürük. Bu əsərlərdə üstünə günü gətirilən, qadınlıq qüruru qırılan, bütün bunlara baxmayaraq, boşanma səlahiyyəti olmayan müsəlman qadınının acı faciəsi verilir. "Yuxu" hekayəsində yazıçı röya motivindən istifadə edərək, hüquqsuz, günü üstünə günü gətirilən müsəlman qadınının acı taleyini verir. Fatmanın gördüyü yuxu, əslində əzilən müsəlman qadının kabus dolu real həyatı idi: "Fatma bir də görür yenə əri evindədir. Yenə eyni həyat, döyüş, söyüş, göz yaşı, qüssə.. Yenə əri vurub dişlərini salır. Başını yarır" (Çəmənzəminli, 1976, p. 72).

Görkəmli alim K.Məmmədov Çəmənzəminlinin qadın probleminə münasibəti haqda yazır: "Azərbaycan qadınının keçdiyi həyat yolunu, hüquqsuzluğunu, bir insan kimi yaşamadığını göstərmək yaradıcılığının əvvəl günündən Çəmənzəminlini bir vətəndaş-yazıçı kimi ən çox məşğul edən məsələlərdən biri olmuşdur. Ədibin realist-maarifçi görüşlərinin nəzəri və əməli özəyini təşkil edən publisistikasının da yenə canı qadın məsələsidir"(Məmmədov, 1981, p. 127). Çəmənzəminlinin yaradıcılığında qaldırılan bu problemlər S.Hüseynin "Gilan qızı" və "Gənclik macəraları" hekayələrində də öz əksini tapır. "Gilan qızı" hekayəsində atasını itirdikdən sonra əmisinin himayəsində qalan on üç yaşlı Qönçənin zorla Nizamüddövləyə verilməsi nəql olunur. Yazıçı göstərir ki, Qönçələri qəlibləşmiş, patriarxal adət-ənənələrin cəngindən qurtarmaq olduqca çətindi. Aşağıdakı sətirlər müəllif mövqeyini özündə təcəssüm etdirir: "Səni qurtarmaq mümkün deyildi; çünki səni əzən, səni təhqir edən, sənin varlığını xırpalayıb gəmirən Nizamüddövlə deyil, nizamüddövlələrə elə səlahiyyət verən məmləkətimizin nizamı, üsulu və qanunudur. Bu üsul və qanun yaşadıqca, sən düşdüyün fəlakətdən qurtara bilməyəcəksən! Sən xilas olmaq üçün bu üsul və qanun ilə mübarizə etməlisən" (Seyid, 1993, p. 50). Bəli, tək çarə, qadının öz haqları uğrunda mübarizə aparması idi. Yazıçının "Yatmış kəndin qış gecələrində" əsərində əzilən, incidilən Tellinin mübarizəsi, oyanışı kəndin ortasında çadrasını atmağa qədər gedib çıxır. Arif Əmrahoğlu bu bədii detala toxunaraq, "Tellinin çadrasını atmasını Sevilçiliy"in (Əmrahoğlu, 2000, p. 209) təsiri ilə əlaqələndirir. Yazıçının özü də, etiraf etmişdir ki, "Gələcək həyat yollarında" əsərini C.Cabbarlının "Sevil" pyesini oxuyandan sonra yazmışdır.

Azərbaycan müsəlman qadınının ağır vəziyyəti, hüquqsuzluğu A.Divanbəyoğlunun "Əbdül və Şahzadə" (1902, rus dilində) əsərinin də leytmotivini təşkil edir. Yazıçı bu povestində Əbdülün dilindən öz müəllif mövqeyini ortaya qoyur. Əsərin əsas qəhrəmanlarından biri olan Əbdülü müsəlman aləmində

qadına münasibət məsələsi düşündürür: "Qadın qəlbi" – Əbdülün beynində bu fikir dolandı, – həssas, xeyirxah qadın ürəyi. Yazıq uşaq, günahsız məxluq, sizin şəxsi vəziyyətiniz qəlbinizə toxunmur, sizi mübarizə edib özünüzü azad etməyə, özünüz üçün azadlıq, səadət və rahatlıq qazanmağa çağırmır"(Divanbəyoğlu, 1981, p. 15). N.Muhiddinin romanlarında olduğu kimi, burada da dörd divar arasında sıxışdırılıb qalan, qaşqabaqlı, dözülməz xacələrin nəzarəti altında yaşayan hərəmxana həyatına nəzər salınıb, köhnə irticaçı fikirlər tənqid atəşinə çevrilir. Əbdül hərəmxana həyatını sürgünə, əbədi məhbəsə, burdakı bəzəkli-düzəkli xanımları isə parnik çiçəyinə bənzədir. Özündən qat-qat böyük, zorla, sevmədiyi adamlara qızların ərə verilməsi faktına burada da toxunulur. Ziyalı bir qız olan Nisə Sultanı sevsə də, zəngin Mirzə Mehdiylə nişanlanmağa məcbur edilir. Mirzə Mehdi – Rüstəm bəy obrazlararası münasibət, konflikti kulminasiyaya çatdırır, Mirzə Mehdinin iç üzünün açılması, Nisənin qurtuluşuna, daha sonra isə Sultanla xoşbəxt yuva qurmasına səbəb olur. Əbdül–Şahzadə, Nigar-Murad lirik xəttində isə dövrün, zamanın boyunduruğu altında əzilib, sevgisi, azadlığı əlindən alınıb, bədbəxtliyə məhkum edilən qadınların acı taleyi verilir. "Qadınlar xeyirxah xalq olsaydılar, Allah onları qadın yaratmazdı" (Divanbəyoğlu, 1981, p. 96) – düşüncəsi ilə yaşayan, qadını ikinci dərəcəli şəxs görən Qeys bəyin patriarxal düşüncələri, övladları Nigar və Şahzadənin məhvinə səbəb olur. Əsər boyu qadın mütiliyi, döyülən, təhqir olunan, atasının, ərinin malı hesab edilən müsəlman qadınının faciəsi real boyalarla təsvir olunur. Əsərdə konflikt köhnə və yeni, cəhalət, mövhumat və maarifçilik arasında qurulmuşdur. Xüsusən, Əbdülün "Müsəlman qadınlarına" sərlövhəli məqaləsi diqqəti cəlb edir: "Müsəlman qadınları, siz kobud müstəbidlər tərəfindən əl-ayağınıza vurulmuş qandalların ağırlığını hiss edirsinizmi? Hiss edirsinizmi ki, sizin həyatınız mədəniyyətsizlik, əxlaq pozğunluğu zənciri ilə həlqələnmişdir" (Divanbəyoğlu, 1981, p. 134). Yazıçının Əbdülün diliylə verdiyi fikirlər oxucunu ciddi şəkildə düşünməyə vadar edir. Ən maraqlısı budur ki, digər əsərlərdən fərqli olaraq, burada qadın haqlarının qorunması təkcə qadınların deyil, kişi obrazlarının da dilindən verilir.

Əbdül obrazı türk ədəbiyyatının ilk feminist romanlarından hesab olunan "Gəlinlik qız" (K.Nadir) əsərindəki Behzad surəti ilə də səsləşir. Qadını məhz qadın olduğu üçün öz məngənəsində sıxan yazılmamış qaydalar, qadın-kişi bərabərsizliyi, qadının zorla (görücü üsulu ilə) ərə verilməsi kimi problemlər "Gəlinlik qız" romanının da əsas mövzusudur. Əsərin əsas qəhrəmanı Feyza rəssam bir xanım olmasına baxmayaraq, "Əbdül və Şahzadə" romanının qadın surətləri kimi böyüklərin təzyiqi, "ənənələrin" ağırlığı altında əzilir. Behzad bəy də, Əbdül kimi bu "ənənələrə" cəsarətlə qarşı çıxır. Tapdalanan qadın hüquqlarına, qadınların kölə kimi görücü üsulu ilə ərə verilməsinə etirazını bildirən Behzad bu "ənənələrə" istehza edərək acı-acı gülür: "Siz yaradılış etibarı ilə belə aradüzəldənlər vasitəsi ilə ərə gedəcək qızlardan olmadığınız halda, qul bazarındaymışsınız kimi bəzi qadınların qarşısına çıxıb – indiyənə qədər olduğu kimi və bundan sonra da – başdan-ayağa gözdən keçirilməyə təhəmmül edəcəksiniz"(Nadir, 1963, p. 23). Stereotipləri qırmağa hədəflənmiş istehza dolu bu sözlər, "Müsəlman qadınları, siz kobud müstəbidlər tərəfindən əl-ayağınıza vurulmuş qandalların ağırlığını hiss edirsinizmi"? ... "Müsəlman qadınları, bütün qüvvələrinizi toplayın, əgər belə olarsa, zəncirlər və torlar parçalanacaq" (Divanbəyoğlu, 1981, pp. 134-136) – deyə hayqıran Əbdülün fikirləri ilə səsləşir. Hər iki

əsərdə konflikt zidd dəyərlər, köhnə və yeni fikirlər arasında qurulmuşdur. Feyza obrazı “Əbdül və Şahzadə” əsərindəki ali-təhsilli Nisəni, patriarxal ailənin qızları olan Nigar və Şahzadəni xatırladır. Hər iki əsərdə ziyalı xanımlar belə yazılmamış qanunlara, “ənənələrə” qarşı çıxmaqda acizdilər. Onların yaşadığı patriarxal cəmiyyətdə ziyalı xanımlar (Feyza və Nisədə olduğu kimi) öz hüquqlarını belə qoruya bilmirlər. Çünki, onların yaşadığı patriarxal dünyada Qeys bəylər, Mirzələr (“Əbdül və Şahzadə”), Qasımlar (“Gəlinlik qız”), Bəhlullar (“Səadət tacı”) kimi meşşan təbiətli, çürük düşüncəli insanlar yaşayır. Onların düşüncəsinə görə, qadın heç bir söz haqqı olmayan, ərinə və ya atasına tabe olan, onların istəklərini qeyd-şərtsiz yerinə yetirən müti varlıqlardır. K.Nadir  “Səadət tacı” əsərində Bəhlulun dilindən müsəlman kişisinin gözündəki qadın obrazını belə ifadə edir: “Mən sənəti və sənətkarı həmişə təqdir edirəm. Böyük sənətkar önündə baş əyirəm. Amma bu sənətkar bir qadındırsa... vəziyyət dəyişir.. ... qadın yaxşı sənətkardan çox, mükəmməl bir zövcə ola bilər”(Nadir, 1963, p. 31). Yazıçı böyük bir ağrı ilə müasir dünyada qadınların təhsil almasına şəraitin yaradıldığını, lakin sosial həyata atılmağına imkan verilmədiyini vurğulayır. K.Nadir qadının cəmiyyətdəki önəmini Behzədin dili ilə ifadə edir: “Siz cəmiyyət üçün lazımlı bir şəxssiniz... Hər zaman təkrar etdiyim kimi, yenə də deyirəm, bir kişiyə xidmətçilik etmək üçün dəhanızın ziyan olmasına razı deyiləm”(Nadir, 2002, p. 238). Yazıçı maraqlı bir məsələyə toxunaraq, Feyza kimi təhsilli bir xanımın iç üzünü görüb tanıdığı, meşşan təbiətli nişanlısından “cəmiyyətin nə deyərlər” qınağına görə ayrılmaqda tərəddüd etdiyi faktını göstərir. Behzəd isə onu acı gerçəklərlə üzləşdirib, cəsarətli olmağa çağırır: “Başqaları nə deyər?! Bu “nə deyərlərin” oduna yanmadınızmı! Hanı, hardadı o adamlar indi? Budur, əzablarınızı tək çəkirsiniz.... Onlar dedi-qoduları ilə təkcə əl-qolunuzu bağlamadılar, həyatınızla da oynadılar”(Nadir, 2002, p. 380).

Feyzanın timsalında cəmiyyətdə özünə yer tapmaq üçün əzab-əziyyət dolu yoldan keçən türk qızının mübarizəsini görürük. O, hər nə qədər “başqaları nə deyər” prinsipi ilə yaşasa da, ümidsizliyə düşsə də, mübarizə aparmağa çalışır.

H.R.Gürpınarın “Billur qəlb” romanının qəhrəmanı Səma isə bu streotipləri qırmaqda Feyzadan daha cəsarətlidir. Əsər boyunca nişanlısı Mühlisin yersiz qısqanclıq və şübhələri, Səmanın günahsız yerə tələyə düşüb adının ləkələnməsi konflikti kulminasiyaya çatdırır. Mühlis “başqaları nə deyər” rüsvayçılığından qurtulmaq üçün nişanlısını intihar etməyə, özünü öldürərək onu bu rüsvayçılıqdan qurtarmağa məcbur edir. Səma isə özündə güc taparaq axına qarşı çıxaraq “ləkəli qadın ölümə məhkumdur”, “lənətlənmişdir” stereotipini qıra bilir. Çünki, “O, böyük, gizli əzablarını ovunduracaq sirrə ermək üçün dağbaşı yalnızlıq yuvalarına çəkilməyi mənasız hesab edirdi”(Gürpınar, 2015, p. 366). Beləliklə, Səma başını dik tutaraq, nəinki öz həyatına davam edir,  həmçinin cer-cehizini satıb toxuculuq dəzgahları alıb, özü kimi “damğalanmış” çarəsiz qızları başına toplayıb dimdik ayaqda durmağa çalışır. Qısa müddət sonra isə billur kimi təmiz qəlbi, zəhmətkeşliyi ilə insanların rəğbətini qazanır. Yazıçı Səma obrazının timsalında hüquqlarını qorumağı bacaran, öz ayaqları üzərində duran azad qadın portreti yaradır. “Hüseyn Rəhmi Gürpınar “Billur qəlb” romanındakı Səma obrazıyla cəmiyyətə, iş həyatına atılaraq mübarizə aparan türk qadınını simvollaşdırmışdır” (Babayeva, 2019, p. 109).

“Billur qəlb”dən fərqli olaraq, Əsəd Mahmud Qaraqurdun “Küçədən gələn qadın” (1945) romanının qəhrəmanı bu stereotipləri qıra bilmir. Əxlaqsızlığa düşən bir qadın peşman olub hər nə qədər yeni bir səhifə açmağa çalışsa da, alnındakı damğadan heç cürə qurtula bilmir. Yazıçı Səmranın diliylə cəmiyyətin “Küçədən gələn qadın, küçəyə qayıtmağa məhkumdur”(Karakurt, 1974b, p. 211) “qanunauyğunluğunu” ifadə edir. Göstərir ki, müsəlman cəmiyyətlərində səhv edib, yanlış yola düşən qadınlar, öz cəzalarını həyatlarıyla ödəməyə məhkumdular. Mükərrəm Kamil Suyun “Bir ovuc xatirə” (1947) romanının qəhrəmanı kasıb bir qız olan Nilufər də Səmra kimi eyni taleyi yaşayır. Atasının vəfatından sonra evin məsuliyyətini boynuna götürən gənc qız öz zəhmətiylə çalışıb, anasını da saxlayır. “Onun üzü kimi gözəl əxlaqı da vardır. Ağırbaşlı, itaətkar bir qız idi. Uşaqlıqdan bəri anasının köməkçisi olmuş, sevdikləri üçün zövqlə zəhmətə qatlaşmışdır”(Su, 1947, p. 4). Gözəl, zəhmətkeş, fədakar bir qız kimi təqdim edilən Nilufər etdiyi səhvin bədəlini həyatı ilə ödəməyə məhkum edilir. Anası başda olmaqla, ətrafındakı hər kəs ondan üz döndərir. Evdən qovulan gənc qız, dedi-qodulardan, söz-söhbətdən canını qurtarmaq üçün İstanbula üz tutsa da, cəmiyyətin qınağı, yersiz mühakimələr burada da onu qarabaqara təqib edir. Əsərin əvvəlində məsum, zəhmətkeş bir qız kimi təqdim edilən Nilufəri, əsərin sonunda bataqlıqlarda sürünməyə məhkum olan bəsit bir küçə qadını kimi görürük. Onu bu çarəsizlikdən qurtarmaq istəyən Qədri bəyi, də damğalı adı ilə ləkələməmək üçün özündən uzaqlaşdırır. Əsərdə cəmiyyətin təzyiqləri nəticəsində tamamilə yolunu itirən damğalı bir qadının acı taleyi cəmiyyətin əsəri olaraq təqdim edilir.

R.E.Aygənin “Afrodit buhurdanında qadın” (1939), A.Gündüzün “Tank-Tango” (1928), “Bu torpağın qızları” (1928) romanlarının qadın qəhrəmanları da bu taleyi yaşayır, istismara məruz qalır, əxlaqsızlığa yuvarlanırlar. Bu romanlarda yenicə iş həyatına atılmağa çalışan qadınların bu yola düşməsinin iqtisadi və digər ictimai səbəbləri üzərində durulur, fühuş cinsi-ayrı seçkiliyin mənfi təzahürü olaraq göstərilir.

Ə.M.Qaraqurdun “Qadın sevərsə” (1939) romanı isə azad sevgi və stereotiplər üzərində qurulmuşdur. Əsərin qəhrəmanı Leyla ailəsini atıb sevgilisinə qoşulub qaçdığı üçün əxlaqsızlıqda ittiham edilir. Yazıçı on beş yaşında ikən zorla, tanımadığı, bilmədiyi adama ərə verilən Leylanın çəkdiyi zülmləri göstərərək, Leylanı deyil, onu bu duruma salanları lənətləyir. Müəllif Leylanın dilindən öz mövqeyini ortaya qoyur: “Xeyr, əziz hakimlər, xeyr, qadınları anlamayan, onlara hörmət etməyən, ruhi ehtiyacını qavramayan hər hansı bir kişinin qadını, qarşınıza mənim kimi hayqıraraq, fəryad edərək gələcəkdir. Siz yenə də, istədiyiniz qədər “ayıbdır, utanmırsınızmı” deyə bağırın.... Onlar qəlbləri iztirab, gözləri yaşlarla “biz deyil, bizi bu hala salanlar utansın” deyə bağıracaqlar” (Karakurt, 1974a, pp. 155-156). Bu nüans Ə.M.Qaraqurdun “Aldatacağam” (Məcid-Müəlla), “Bir qadın qeyb oldu” (Nəcmi-Humeyra), “Ömrümün tək gecəsi” (Ekrəm-Cəmilə) kimi romanlarının da leytmotivini təşkil edir. Bu əsərlərin hər birində öz sevgisi, xoşbəxtliyi uğrunda qarşısındakı bütün maneələri qırıb-keçən (hətta bəzən ailə dəyərlərini belə) azad qadın obrazı yaradılaraq, azad sevgi anlayışı təbliğ olunur. Fikrimizcə, qadın dünyasının, qadın yaşamının ekzistensiyasının təsvir edildiyi bu əsərlərin bəzisində mənəvi dəyərləri aşıb keçən “azad sevgi” anlayışı bir qədər mübaliğəli təsvir edilmişdir. S.Dərvişin “Çılğın kimi” (1945)

romanı da bu qəbildəndir. Romanın əsas qəhrəmanı olduqca əsilzadə bir xanım olan Cəlilə Əhmədlə sakit, rahat bir ailə həyatı sürür. Olduqca işgüzar bir insan kimi təsvir olunan Əhməd, daha yaxşı yaşamaq, daha çox varlanmaq ehtirası ilə yaşayır. Beləliklə, o, daha çox xeyir əldə eləmək üçün məşhur iş adamı Möhsün Dəmirtaşla səmimi münasibət qurur. Yazıçı göstərir ki, təbiətcə quru, soyuq bir iş adamı olan Əhmədin mənsəbpərəstliyi, laqeydliyi, cansıxıcılığı həyat eşqi ilə yaşayan Cəliləni günü-gündən ondan soyudur. Daxili monoloqlardan Cəlilənin mənəvi-psixoloji aləmində baş qaldıran ziddiyyətləri görürük. Möhsünlə arasında yaranan mənəvi yaxınlıq konflikti daha da gərginləşdirir. Əsərin əvvəlində olduqca ləyaqətli, əxlaqi dəyərlərə önəm verən mükəmməl bir qadın kimi təsvir edilən Cəlilə, birdən-birə dəyişməyə başlayır: "İçində sanki başqa bir qadın peyda olmuşdu. Heç bir əxlaq qaydası tanımayan, bu dünya və yaşadığı mühit haqqında heç bir düşüncəsi olmayan başqa bir qadın!... Cəlilənin sakin, tərbiyəli, uyumlu varlığının daxilində şüuru, idrakı olmayan, instinklərlə hərəkət edən əcaib bir məxluq doğulmuşdur"(Derviş, 2000a, p. 89). Yazıçının da ifadə etdiyi kimi, bu yad qadın, onun həyatını, iffətini, namusunu və heysiyyatını əzib keçməkdən bir azca da olsa, qorxu duymayacaqdı. Beləliklə, Cəlilə, açıq-aydın öz sevgisi uğrunda mübarizə apararaq, ailəsini tərk edir. Möhsünün də daxili konfliktində onun Cəliləni çox sevməsinə baxmayaraq, içini didib-parçalayan böyük bir şübhə ilə yaşadığını görürük. Yazıçı göstərir ki, ona görə ərini aldadıb, yuvasını yıxan bir qadına Möhsün axı necə etimad edib, şərəf və heysiyyatını onun əllərinə buraxıb, adını verə bilərdi. Onu necə "həyat yoldaşım" deyə cəmiyyətə təqdim edə bilərdi. Beləliklə, tanınmış iş adamı olan Möhsün Cəliləni nə qədər çox sevsə də, cəmiyyətdəki etibarının sarsılmaması üçün onunla münasibətlərini rəsmiləşdirmək istəmir. Beləcə, hər iki tərəfin sonsuza qədər sürəcəyini xəyal etdikləri bu böyük eşq kiçik hesabların, xırda qayğıların, şübhə və inamsızlığın, cəmiyyətin mühakimələrinin qurbanına çevrilir. Çılğın bir eşqlə başlayan Cəlilə–Möhsün lirik psixoloji xətti, Cəlilənin ana olacağı xəbərinin ortaya çıxmasıyla çökməyə başlayır. Möhsün Cəlilənin qəsdən, öz mənfəəti uğrunda, onu evlənməyə razı salmaq üçün hamilə qaldığını düşünür. Və qətiyyətlə, bu bəladan qurtulmaq istəyir. "Cəlilə ömründə Möhsünün ona belə fəna bir baxışla baxdığını görməmişdi. Bu bir düşmən baxışı idi. Bu baxış tanımadığı bir adamın baxışları idi. Onu daha da çox görməmək üçün gözlərini yumdu"(Derviş, 2000a, p. 272). Yazıçı maraqlı manevr edərək əsəri eyni dialoqla başladıb, eyni dialoqla da bitirir.

"- Bu gecə niyə belə kədərlisən?

- Sənə bu qədər yaxın və uzaq olduğum üçün"(Derviş, 2000a, p. 7).

Dialoq eyni olsa da, obrazların yeri və ifadə etdiyi məna artıq dəyişilmişdir. Yazıçı Cəlilə obrazı ilə ən ağır situasiyalarla qarşılaşan qadının cəmiyyətdəki mövqeyini, psixikasında yer alan şüuraltı travma və basqıları özünəməxsus şəkildə ifadə edir. "Psixoloji-fəlsəfi romanlarda diqqəti cəlb edən əsas məqam obrazın psixoloji yaşantılarının, insan ruhunun dərinliklərinin, şüuraltının qeyri-ixtiyari istəklərinin, vicdan duyğusunun yaratdığı daxili konfliktlərin əks olunmasıdır"(Babayeva, 2023, p. 45). Bu baxımdan Cəlilə obrazı dolğunluğu ilə diqqəti cəlb edir.

"Çılğın kimi" ideya-məzmun baxımdan L.Tolstoyun "Anna Karenina" romanı ilə səsləşir. Anna Arkadyevna – Aleksey Aleksandroviç və Əhməd-Cəlilə, Anna-Aleksey Vronski və Cəlilə-Möhsün

obrazlararası münasibətlərdə paralellik özünü göstərir. Cəlilə və Möhsün kimi, Anna və Vronski də cəmiyyət tərəfindən qəbul edilmir. Hər iki qadın qəhrəman dərin psixoloji sarsıntılar yaşayır. Annadan fərqli olaraq, Cəlilə intihar etməyə belə özündə güc tapa bilmir, günahlarının bədəlini "ləkəli qadın damğası" altında yaşamaqla ödəyir.

Eyni motiv Oğuz Özdəşin "Gizlənən iztirablar"(Özdeş, 1943) romanında da əks olunur. Sosial-psixoloji müstəvidə qələmə alınan Leyla–İlhami eşqi, Leylanın intiharıyla sonuclanır. Bu nümunələrin sayını kifayət qədər artırmaq mümkündür.

Qadının öz sevgisi uğrunda mübarizəsi və ya bu duyğularını fəda etməsi kimi motivlər Azərbaycan nəsrində də müşahidə edilir. Məsələn, S.Hüseynin "Gənclik macəraları" hekayəsində öz sevdiyi ilə deyil, Çopurla evləndirilən Şirinnaz, ərinin ölümündən sonra qaynına zövcə olmağa məcbur edildiyi üçün intihar edir. Yazıçı qəhrəmanın dilindən, bu faciənin yalnız onların deyil, istədiyinə yetişə bilməyən gəncliyin faciəsi olduğunu vurğulayır. İlyas Əfəndiyevin əsərlərində də bu məsələlər öz əksini tapır. Yazıçının, "Körpüsalanlar" romanı bu baxımdan maraq doğurur. Əhməd-Cəlilə ("Çılğın kimi"), Adil–Səriyyə ("Körpüsalanlar"), İsmayıl Nafiz bəy–Leyla ("Gizlənən iztirablar") və Cəlilə–Möhsün, Leyla–İlhami, Qəribcan–Səriyyə xətləri arasında bəzi paralelliklər vardır. Bu əsərlərin hər birində, qadının xoşbəxtlik arayışı, bütün sədləri aşaraq sevgi uğrunda mübarizəsi öz əksini tapır. Bu əsərlərdən fərqli olaraq, G.S.Aygünün "Ölən qadının gündəliyi" romanında Fikrət–Nejad xəttində Fikrətin fədakarlıq edərək kənara çəkildiyini, öz xoşbəxtliyini heç kəsin bədbəxtliyi üstündə qurmaq istəmədiyini görürük. Fikrət obrazı, bizə İlyas Əfəndiyevin "Söyüdlü arx" romanındakı Nuriyəni xatırladır. Nuriyə də, Fikrət kimi qəlbinə daş bağlayıb, öz sevgisindən imtina edir. Hətta, Muradın məktubu onu başqa xəyallara aparsa da, özünü toplayıb, məktubu, "Çünki o, anadır. Çünki o, sizi sevir"(Əfəndiyev, 2014, p. 444) sətirləriylə bitirir. Yazıçı bu fədakarlığı Nuriyənin daxili konfliktində özünəməxsus şəkildə ifadə edir: "Bu cümlələri yazdıqca, elə bil ürəyimə yüzlərlə buz kimi soyuq iynələr sancırdılar. Lakin mən geri çəkilmirdim. Düzmü hərəkət edirdim? Sözlərimdə haqlı idimmi? Bilmirəm. Mən öz mətanətimdən razı idim. Mən "həqiqi insan ləyaqətinin qarşısında hər şey yalandır" deyə özümü öydüm. Mən öz hərəkətimdən misilsiz zövq aldığıma özümü inandırmağa çalışırdım" (Əfəndiyev, 2014, p. 444). Bu sətirlər Fikrətin Nejadın sevgisini rədd etdiyi səhnə ilə paralellik təşkil edir:

"– Mən, nə edə bilərdim ki?.. Rədd etdim. Gözlərimin qabağına yoldaşı, övladları gəldi. Vicdanımın səsi mənə eşqimi öz əllərimlə məzara gömdürdü. Başqa heç nə edə bilməzdim. Dəhşətli bir böhran içindəyəm. Bilmirəm, bəlkə düz, bəlkə də səhv etdim. Fəqət vicdanımın səsi hələ də qulaqlarımdadır"(Güzide, 1942, p. 16). Qəhrəmanların mənəvi-psixoloji sarsıntıları və fədakarlıqları oxucuda rəğbət hissi oyadır.

Qadının cəmiyyətdə özünəməxsus yeri B.C.Morqayanın da yaradıcılığının əsasını təşkil edir. Yazıçı "Qızıl ilğım" romanında Aytən obrazının simasında özündən yaşca böyük bir adamla evləndirilən, daha sonra ərinin ondan başqa bir arvadı da olduğunu bilib, bunu qadınlıq qüruruna sığışdırmayıb ayrılan, öz əlinin zəhməti ilə, namusu ilə övladını böyüdən güclü qadın-ana obrazı yaradır. "Billur qəlb" romanında olduğu kimi, burda da qadının öz əlinin əməyi ilə tək başına var ola bilmə mücadiləsi öz

əksini tapır. “Qızıl ilğım” əsərinin davamı olan “Aytən” romanında əzabkeş həyat sürmüş Aytənin qızı Hicranın taleyi əks olunur. Qeyd edək ki, Aytənin qızı Hicranın adını öz adıyla dəyişməsi də simvolik xarakter daşıyır. Bununla da, özünün yaşaya bilmədiyi həyatı qızının timsalında həyata keçirməyə çalışır. Digər obrazlardan fərqli olaraq, Aytən tamamilə yeni bir qadın xarakteridir. Adətən romanlarda müəllim, tibb bacısı, dərzi, rəssam kimi məsləklərə sahib qadınlardan bəhs edilərkən, bu romanın qəhrəmanı dərzi Aytənin qızı Hicran idmanla məşğul olur. Yazıçı yeni qadın modeli haqqında görüşlərini bir ananın dilindən verir: “Artıq qızları dizinin dibindən ayırmama mülahizəsi süquta uğrayıb, əcəba bunu edənlər, qızlarının sonrakı taleyindən, müqəddəratından əmin ola bilirlərmi?!” (Burhan, 1927, p. 126). Yenə də ananın dilindən, indiki “kişilər Məcnun deyil ki, Aytən də Leyla” (Burhan, 1927, p. 116) olsun düşüncəsini görürük. Evlilik, qadının sosial tutumu kimi məsələlər Ş.N.Başarın “Rəngsiz iztirab” (1928), “Yaqut qayalar” (1931), “Çöl günəşi” (1933), “Tək qayıdıram” (1938) kimi romanlarında da öz əksini tapır. Ş.Nihal “Çöl günəşi” romanında məktublar şəklində üç qızın tərcümeyi-halı müstəvisində qadın və cəmiyyət problemini işıqlandıraraq, öz mövqeyini də ortaya qoyur: “Ərinin həqarətlərinə boyun əyən, ancaq evinin işini görən, aylarla evdən addımını kənara atmayan qadın, bu günə qədər ən fəzilətli, ən yüksək, ən yaxşı qadın hesab olunurdu. Halbuki sən, zamanın əxlaq görüşlərini, dəyərləndirmələrini dəyişdirdiyini bilirsən. Məncə, artıq belə qadın yüksək fəzilətli deyil də, miskin, şəxsiyyətsiz, zavallı bir məxluqdur” (*Şükufe Nihal-Bütün Eseleri*, 2009, p. 145). H.Arqunşah qeyd edir ki (Argunşah, 2002, p. 193), Şükufə Nihala görə evlilik təkcə birgə yaşayış və ya “Çöl günəşi” romanında da, ifadə etdiyi kimi “qadının həyat sığortası” demək deyildir.

Təhlillər göstərir ki, milli mücadilədən keçib, Cümhuriyyətini quran türk xalqının yeni qadın modeli – milli mənafeyini şəxsi mənfəətlərindən üstün tutan, öz hüquqlarını qoruya bilən, cəmiyyətdə özünəməxsus mövqe tutan qadınlardır. Bu ideyalar Türkiyənin ictimai-siyasi, ədəbi-mədəni həyatında önəmli rol oynayan X.Ə.Adıvarın “Xəndan”, “Vurun əxlaqsıza”, “Atəşdən köynək” kimi romanlarında, eləcə də elmi-publisistik məqalələrində öz əksini tapır. O, bu haqda yazırdı: “Qadınlar nə ulduz, nə çiçək, nə də sadəcə ədəbiyyatın mövzusuna çevrilən xəyali məxluq deyil. Qadınlar vətən mücadiləsində sizin köməkçiniz, əsl dostlarınızdır. Onlar ananız, bacınız, xanımınız və millətin inkişafı üçün açdığınız cığırda sizinlə çiyin-çiyinə addımlayan yoldaşınız, məsləkdaşınızdır” (Enginün, 1989, p. 207). Bu ideyalar, onun roman qəhrəmanlarının timsalında da öz əksini tapır. Azad qadın xarakterinin əks olunduğu romanları nəzərdən keçirsək, Aliyəni (“Vurun əxlaqsıza”), Fəridəni (“Çalıquşu”), Səmanı (“Billur qəlb”), Ayşəni (“Atəşdən köynək”) və Aytəni (“Aytən”) yeni dünyanın yeni qadın konsepsiyası kimi səciyyələndirə bilərik. Bu müsbət qəhrəmanlar yeni Cümhuriyyətin sözçüsü olan, vətən-millət eşqiylə yaşayan, hətta öz məhəbbətlərini belə vətən sevgisinə qurban verən yeni qadın xarakterləridir. Yeni qadın modeli, əsasən sosial kimliyi ilə diqqəti cəlb edir. Beləliklə, çətin, keşməkeşli bir yol keçən qadın hərəkatı, Səmaların, Aliyələrin, Fəridələrin, Aytənlərin timsalında öz özgürlüyünə qovuşmuş olur.

**Nəticə / *Conclusion***

Azərbaycan və türk ədəbiyyatında qadın probleminin əksi məsələsini müqayisəli olaraq tədqiqata cəlb edərkən, ideya-məzmun baxımdan bir sıra paralelizmin olduğu qənaətinə gəlirik. Sözügedən

dövrdə ictimai-siyasi həyat qadının sosial kimliyini ortaya çıxarmış, maarifçilik hərəkatı başlamış, əsrlərdən bəri var olan qadın problemi daha açıq-aydın şəkildə əsərlərdə öz əksini tapmağa başlamışdır. Qadının cəmiyyətdə var oluşu yeni qurulan Cümhuriyyətin prioritet məsələlərindən idi. Azərbaycanda da, eyni illərdə sovet hakimiyyəti qurulmuş, mövcud şəraitdə qadınlara yer verilmiş, qısa bir müddətdə qadınlar müxtəlif savad kurslarına, ictimai işlərə cəlb edilmişdir. Belə bir şəraitdə qadın kimliyi, haqq və hüquqlarının tanınması, mənəvi dünyası, cəmiyyətdə yeri ədəbiyyatın, xüsusən də bədii nəsrin əsas mövzusuna çevrilmişdir.

Gender probleminin əks olunduğu əsərlərdə konflikt əsasən düşüncələr, fikirlər arasında qurulmuş, köhnə patriarxal düşüncə, istibdadın ağırlığı altında əzilən, illərlə qandallanmış qadın kimliyi və bu ehkamları parçalamağa çalışan qadın azadlığı üz-üzə gətirilmişdir. Bu əsərlərdə sosial-iqtisadi bərabərsizlik, sinfi ziddiyyətlərlə dolu mürəkkəb bir dövr və müsəlman qadınların acınacaqlı və hüquqsuz vəziyyəti real boyalarla əks olunaraq, qadının mənəvi sarsıntıları ictimai-psixoloji müstəvidə göstərilmişdir. Əsərlərin bir qismində köhnə feodal patriarxal mühitdə məhv edilmiş, əsarət zəncirinə məhkum edilmiş müti, biçarə qadın, digərində isə öz hüquqları uğrunda mübarizə aparan, bu stereotipləri qıran azad və cəsur qadın obrazı yaradılmışdır. Azərbaycan və Türkiyə bədii nəsrində müşahidə edilən tipoloji səsləşmələr gender probleminin sözügedən dövrün ədəbiyyatında aktuallığını göstərir.

## Ədəbiyyat / *References*


Argunşah, H. (2002). *Bir Cumhuriyet Kadını Şükûfe Nihal*. Akçağ Yayınevi.

Asker, N. (2022). Göroğlu Destanında Kadın ve Aile İlişkileri *AKRA Kültür Sanat ve Edebiyat Dergisi*, *10*, 43 - 52. https://doi.org/10.31126/akrajournal.955624

Babayeva, E. (2019). "Hüseyn Rəhmi Gurpınarın "Billur qəlb" romanında qadın azadlığı və gender bərabərliyi". *Müqayisəli Ədəbiyyatşünaslıq*, *2*, 106-110.

Babayeva, E. (2023). Əhməd Həmdi Tanpınarın "Hüzur" romanının psixoanalitik təhlili. *Müqayisəli Ədəbiyyatşünaslıq*, *2*, 44-49. https://doi.org/10.59849/2663-4414.2023.1.44

Burhan, C. M. (1927). *Ayten*. Burhan Cahit ve Şürekası Matbaası.

Çəmənzəminli, Y. V. (1976). *Seçilmiş əsərləri*. Gənclik.

Derviş, S. (1931). *Emine*. Resimli Ay.

Derviş, S. (2000a). *Çılgın gibi*. Doğan Kitapcılık.

Derviş, S. (2000b). *Fosforlu Cevriye* Doğan Kitapçılık.

Dik, T. (2012). *Tanzimat'tan Cumhuriyet'e Ressentiment'in dönüşümü : Nezihe Muhddin ve Leyla Erbil* (Publication Number PL223 .D55 2012) İhsan Doğramacı Bilkent Universiteti]. Ankara. https://repository.bilkent.edu.tr/items/a520d5a3-a725-44a6-9a3d-3ddecd7e4fb8

Divanbəyoğlu, A. b. (1981). *Seçilmiş əsərləri* (İ. Bəktaşi ed.). Yazıçı.

Durakbaşa, A. (2000). *Halide Edib*.

Əfəndiyev, İ. (2014). (Vol. 4). http://web2.anl.az:81/read/page.php?bibid=vtls000416849

Əmrahoğlu, A. (2000). *Epik sözün poetik gücü* (Ş.Alışanov ed.). Elm. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000012904

Enginün, İ. (1989). *HALİDE EDİB ADIVAR*. KÜLTÜR BAKANLIĞI YAYINLARI.

Fərəcov, S. (2015, 22.07.2015). Milli mətbuatımız və qadın azadlığı. *Mədəniyyət*. https://medeniyyet.az/page/news/19993/-Milli-metbuatimiz-ve-qadin-azadligi.html

Gürpınar, H. R. (2015). *Billur Kalp* Bilge Kültür – Sanat Yayınları.

Güzide, S. (1942). *Ölmüş Kadının Evraki Metrukesi* Semih Lutfi Kitabevi.

Karakurt, E. M. (1974a). *Kadın Severse* İnkılâp ve Aka Kitabevleri.

Karakurt, E. M. (1974b). *Sokaktan Gelen Kadın* İnkılâp ve Aka Kitabevleri.

Məmmədov, K. (1981). *Yusif Vəzir Çəmənzəminli* Elm nəşriyyatı. http://web2.anl.az:81/read/page.php?bibid=5714&pno=2

Muhiddin, N. (2006). *Bütün Eserleri* (Vol. 3). Kitap Yayınevi.

Muhiddin, N. T. (1944). *Sus Kalbim Sus*. Arif Bolat Kitabevi.

Nadir, K. (1963). *Saadet Tacı*. İnkılap ve Aka Kitabevi.

Nadir, K. (2002). *Gelinlik Kız* Doğan Kitapçılık AŞ.

Özdeş, O. (1943). *Gizlenen Iztıraplar* İnkılâp Kitabevi.

Qasımova, A. (2010). *Azərbaycanda ilk qadın mətbuatı: "İşıq" qəzeti*. Adiloğlu nəşriyyatı. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000156297

Seyid, H. (1993). *Gilan qızı* Azərbaycan Dövlət nəşriyyatı.

Su, M. K. (1947). *Bir Avuç Hatıra* İnkılâp Kitapevi.

*Şükufe Nihal-Bütün Eseleri*. (2009). (Vol. 2). Kitap yayınevi.

Zorlutuna, H. N. (1938). *Sisli Geceler*. İkbal Kitabevi.

Zorlutuna, H. N. (2008). *Aşk ve Zafer* Timaş Yayınları.